AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* *№ 16 (1476), 18 - 24 may 2021-ci il* *Qəzet 2001-ci ildən çıxır.*

## 3x3 basketbol yarışları III Avropa Oyunlarının proqramına daxil edildi

2023-cü ildə Polşanın Krakov və Malopolye şəhərlərində keçiriləcək III Avropa Oyunlarının proqramına daha bir idman növü daxil edilib. Avropa Olimpiya Komitəsinin (EOC) rəsmi saytında yer alan xəbərə görə, Oyunlar çərçivəsində 3x3 basketbol yarışları da keçiriləcək.

Bu növ üzrə kişi və qadınların mübarizəsinə 16 komanda mübarizə aparacaq. Krakov və Malopolyedə ümumilikdə 128 basketbolçu iştirak edəcək.

Qeyd edək ki, 3x3 basketbol bu yarışa qədər Bakı-2015 I Avropa Oyunlarında və Belarusun paytaxtı Minskdə keçirilmiş II Avropa Oyunlarının proqramında da yer almışdı.

Hər iki yarışda kişilərin mübarizəsində qalib adını Rusiya komandası qazanmışdı. Qadınların mübarizəsində isə Bakıda Fransa yığması, Minskdə isə Estoniya millisi eyni uğuru əldə etmişdi.

Qeyd edək ki, III Avropa Oyunlarının 9-25 iyun 2023-cü ildə təşkili nəzərdə tutulub.





## Milli Gimnastika Arenası aerobika gimnastikası üzrə dünya yaş qrupları yarışlarına ev sahibliyi edəcək

2021-ci ilin mayında Azərbaycan Gimnastika Federasiyası (AGF) ilk dəfə olaraq aerobika gimnastikası üzrə dünya yaş qrupları yarışları təşkil edəcək. Sayca 9-cu olan bu yarışlar mayın 21-23-də Milli Gimnastika Arenasında keçiriləcək. Yarışda 18 ölkədən 202 gimnastın iştirakı gözlənilir. Çempionatda 12-14 və 15-17 yaş qruplarında gimnastlar birincilik uğrunda mübarizə aparacaqlar. Gimnastlar yarışların ilk iki günü təsnifat mərhələsində yarışaraq öz aralarında finalçıları müəyyənləşdirəcəklər.

Hər iki yaş qrupunda gimnastlar fərdi qadın və kişi, qarışıq cütlük, üçlük, qrup proqramları üzrə təsnifat və final mərhələlərində çıxış edəcəklər. Bununla yanaşı, 15-17 yaşlı idmançılar aero dans proqramında da öz qüvvələrini sınayacaqlar.

Mövcud karantin qaydalarının tələblərinə uyğun olaraq, yaş qrupları yarışları da tamaşaçı iştirakı olmadan keçiriləcək.

Buna baxmayaraq, gimnastika sevərlər bu yarışın həm təsnifat, həm də final mərhələlərini gymtv.online internet səhifəsi vasitəsilə canlı izləmək imkanı əldə edəcəklər.

## Üzgüçümüz Avropa çempionatında qızıl medal qazandı




Azərbaycan para-üzgüçüsü Raman Saleh Portuqaliyanın Madeyra şəhərində keçirilən Avropa çempionatında qızıl medala sahib çıxıb. İdmançı 100 metr məsafəyə arxası üstə üzmə növündə 1 dəqiqə 1,57 saniyə nəticə göstərərək bütün rəqiblərini geridə qoyub.

Qeyd edək ki, Raman Saleh Tokio-2020 Yay Paralimpiya Oyunlarına lisenziya qazanıb.

## Ağırlıqqaldıranlarımız dünya birinciliyində yarışacaqlar

Mayın 21-31-də Özbəkistanın paytaxtı Daşkənddə gənclər arasında ağırlıqqaldırma üzrə dünya birinciliyi keçiriləcək. 112 ölkədən 384 (220 kişi, 164 qadın) atletin mübarizə aparacağı yarışda Azərbaycan yığmasının üzvləri də qüvvələrini sınayacaqlar.

Baş məşqçilər Oktay Muxtarov (yeniyetmələr) və Maksum Xasanovun (gənclər) rəhbərliyi altında komandamız 5 idmançı ilə təmsil olunacaq.

Qeyd edək ki, yarışda ədalət təmsilçisi qismində ölkəmizi beynəlxalq dərəcəli hakim Vahid Nəzərov təmsil edəcək.

## Sabah Avropa çempionatına start veriləcək

Azərbaycanın karate və parakarateçiləri mayın 19-23-də Xorvatiyanın Poreç şəhərində karate üzrə böyüklərin 56-cı Avropa çempionatı və parakarate üzrə növbəti Avropa çempionatında iştirak edəcəklər. Azərbaycan Milli Karate Federasiyasından (AMKF) "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, qitə çempionatında federasiyanın prezidenti Yaşar Bəşirovun başçılıq etdiyi 23 idmançıdan ibarət heyət mübarizə aparacaq.

Fərdi kumite yarışlarında Firdovsi Fərzəliyev (60 kq), Tural Ağalarzadə (67 kq), Rafael Ağayev (75 kq), Pənah Abdullayev (84 kq) və Asiman Qurbanlı (+84 kq), həmçinin Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), Fəridə Abiyeva (61 kq), İrina Zaretska (68 kq) və Fəridə Əliyeva (+68 kq) tatamiyə çıxacaq. Məşqçilər komanda yarışlarında Tural Ağalarzadə, Rafael Ağayev, Pənah Abdullayev, Asiman Qurbanlı, Rafiz Həsənov, Ayxan Mamayev və Turqut Həsənovdan ibarət heyətin tatamiyə çıxmasını məqbul sayıb. Qadınların komanda heyətində isə Nuranə Əliyeva, İlahə Qasımova, İrina Zaretska və Fəridə Əliyevanın çıxışı nəzərdə tutulsa da, fərdi yarışların nəticəsinə əsasən, onlardan birini Fəridə Abiyeva əvəz edə bilər.

Kata üzrə fərdi yarışlara Roman Heydərov və Neda Rezai, komanda çıxışlarına isə Rövşən Əliyev, Tural Balcanlı və İsmayıl Quliyevdən ibarət heyət qatılacaq.

Parakarate yarışlarında Eldar Əhmədov, Sahib Əhədov, Ülvi Zeynallı, Lazım Allahverdiyev və Emiliya Mitilinova çıxış edəcək.

Karate üzrə Avropa çempionatında 47 ölkədən 513 karateçi, parakarateçilərin qitə çempionatında isə 15 dövlətdən 49 idmançı yarışacaq.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## *Anons*

*Azad Rəhimovun əziz xatirəsi Azərbaycan idman ictimaiyyətinin qəlbində daim yaşayacaqdır* Səh. 2

Azərbaycan ilk dəfə Yay Olimpiya Oyunlarında badminton yarışlarında təmsil olunacaq Səh. 3

*"İnsan öz xarakterini mükəmməl səviyyədə təhlil etməyi bacarmalıdır"* Səh. 4

Qəzetimiz bir sıra beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak edib Səh. 5

# Azad Rəhimovun əziz xatirəsi Azərbaycan idman ictimaiyyətinin qəlbində daim yaşayacaqdır

***Azərbaycanın idman ictimaiyyəti 2021-ci ilin aprel ayında ağır itki ilə üzləşdi. Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimov 2021-ci il aprelin 30-da əbədiyyətə qovuşdu.***

***Azad müəllim haqqında keçmiş zamanda danışmaq, yazmaq olduqca çətindir. Bu səmimi insanın aramızda olmaması ilə barışmaq istəməsək də, onun cismani yoxluğunu qəbul etmək məcburiyyətindəyik. Amma bu nurlu insanın xatirəsi onu tanıyanların, onunla birlikdə çalışan şəxslərin yaddaşında daim yaşayacaqdır.***



Azad Rəhimov - müsbət insani keyfiyyətləri, ziyalılığı ilə yanaşı, özü haqqında deyil, başqaları haqqında daha çox düşünən, onların qəlbini sevindirən bir insan idi.

Azad Rəhimov uzun illər Azərbaycanın milli maraqlarının qorunması üçün bilik və bacarığını əsirgəməyərək, özünün yüksək peşəkarlığı və təşəbbüskarlığı sayəsində dövlət gənclər və idman siyasətinin həyata keçirilməsində, bu sahədə dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanıb müvəffəqiyyətlə icra edilməsində uğurlu fəaliyyət göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 7 fevral tarixli Sərəncamı ilə Azad Rəhimov Azərbaycan Respublikasının gənclər və idman naziri təyin olunmuşdur. Gənclər və idman naziri kimi 15 il ərzində ölkə prezidentinin rəhbərliyi ilə respublikamızda gənclərlə iş sahəsində fəaliyyətin gücləndirilməsində, idman infrastrukturunun inkişafında, nüfuzlu beynəlxalq tədbirlərin təşkilində, dünya və Avropa gənclər və idman qurumları ilə əlaqələrin qurulmasında, Azərbaycanın dünyanın idman mərkəzlərindən biri kimi tanınmasında xüsusi xidmətlər göstərmişdir.

2006-cı ildə Azərbaycan Respublikasının gənclər və idman naziri təyin olunan Azad Rəhimov ömrünün sonunadək bu vəzifəni icra etmiş, həmin illərdə eyni zamanda Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti olmuşdur.

Azad Rəhimovun Azərbaycanın 2015-ci ildə ilk Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsində böyük əməyi var idi. Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi 30 aylıq qısa bir müddətdə inanılmaz nailiyyətə imza ataraq, bu mötəbər idman turnirini ən yüksək səviyyədə təşkil etməyə nail oldu. Azərbaycan təkcə təşkilatçılığı ilə deyil, atletlərimizin uğurlu çıxışları ilə də Prezident İlham Əliyevin dediyi kimi, Avropa Oyunlarının standartlarını müəyyənləşdirdi.

Azad müəllimin vətənpərvərlik sahəsindəki fəaliyyəti də diqqətəlayiqdir. Onun rəhbərliyi ilə 24 aprel 2020-ci il tarixdən sosial şəbəkələrdə "Evdə qal, təbliğatdan qalma!" virtual təbliğat kampaniyasına başlanılmışdır. 20 iyul 2020-ci il tarixdə Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində baş verən təxribatla bağlı Gənclər və İdman Nazirliyi tərəfindən müxtəlif ölkələrin müvafiq qurumlarının rəhbərlərinə müraciətlər göndərilmişdir. İkinci Dünya Müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şücaət göstərmiş qəhrəmanların, eyni zamanda pandemiya dövründə yüksək xidmətlər göstərmiş müxtəlif peşə sahiblərinin gənclər arasında tanıdılması, təbliğ edilməsi məqsədi ilə sosial şəbəkədə (Facebook) "Mənim Qəhrəmanım" onlayn kampaniyası keçirilmişdir.

Azad Rəhimov gənclər və idman naziri kimi çalışdığı müddət ərzində daim işgüzarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona həmkarları arasında da böyük hörmət qazandırmışdır. Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan idmanın qarşısında dayanan vəzifələrin müvəffəqiyyətlə gerçəkləşdirilməsi üçün qüvvə və bacarığını əsirgəməyən Azad Rəhimov respublikada idmanın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və kütləviliyinin artırılması, eləcə də idmançılarımızın ən mötəbər yarışlarda iştirakının yüksək səviyyədə təmin edilməsi və ölkəmizin idman şərəfinin beynəlxalq miqyasda layiqincə qorunması işinə töhfələr vermişdir. Azərbaycan gəncliyinin inkişafına dair dövlət proqramları və strategiyalarının hazırlanmasında, habelə gənclərin yaradıcılıq potensialının üzə çıxarılması ilə bağlı tədbirlərin uğurla həyata keçirilməsində də onun təqdirəlayiq xidmətləri olmuşdur. Azad müəllimin həyat fəaliyyəti gənclərə həmişə nümunə olacaqdır. Onun çalışdığı dövrdə gənc nəslin sağlam həyat tərzinin formalaşması, sağlam ruhda böyüyüb tərbiyə olunması, ölkədə bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, yüksək dərəcəli idmançıların hazırlanması, Olimpiya Hərəkatının genişləndirilməsi, Olimpiya Oyunlarına yüksək səviyyədə hazırlığın təmin edilməsi, idmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilmişdir. Azad Rəhimovun rəhbərlik etdiyi Gənclər və İdman Nazirliyinin fəaliyyətinin mühüm istiqamətlərindən biri də istedadlı gənclərin idmana cəlb olunmasına, gənc nəsildə xalqımızın tarixi keçmişinin, onun mədəni irsinin, ölkəmizin zəngin təbiətinin öyrənilməsinə maraq oyatmaqdan ibarət idi. İdmançı gəncləri idmana, elmi yaradıcılığa cəlb etmək üçün müxtəlif vasitələrdən - maddi və mənəvi həvəsləndirmə vasitələrindən istifadə edir, bu sahədə ilin ən yaxşıları mükafatlar, diplomlar, fəxri fərmanlarla mükafatlandırılırdı.

Azad müəllim doğrudan da böyük bir şəxsiyyət idi. O, qısa müddətdə idman ictimaiyyətinin hörmətini qazanmışdı. Ona inanırdılar, onunla işləməyə həvəs göstərirdilər. Azad müəllim özünə qarşı da çox tələbkar idi, onunla işləyənlərdən işin kefiyyətlə görülməsini çox ciddi tələb edirdi. Eyni zamanda iş yoldaşlarına qayğı ilə yanaşırdı, onlara işin icrasında köməklik göstərirdi, istiqamət verirdi.

Çox zaman deyirlər və doğru deyirlər ki, böyük insanlarla bərabər çalışdığımız zaman onların böyüklüyünü görmürük. Onlar bu dünyadan köçəndən sonra düşünürük bu haqda. Azad müəllimin böyüklüyünü hamı görürdü. Azad müəllimi tanıdığım gündən onun zəhmətkeş,



iradəli, əzmkar duyğulu, mehriban, səmimi, sədaqətli, alovlu vətənpərvər bir insan olduğunun şahidi idim.

Azad müəllimin çox vacib olan keyfiyyətlərlə yanaşı, həm də yüksək idarəetmə, təşkilatçılıq bacarığı var idi. Mən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman və xarici əlaqələr üzrə prorektoru vəzifəsində çalışdığım dövrdə Azad müəllim mənim 15-ə yaxın kitablarımın çap olunmasına maddi və mənəvi cəhətdən köməklik göstərmişdir. Gənclər və İdman Nazirliyi tərəfindən Milli Olimpiya Komitəsinin inzibati binasında ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə nəşr olunmuş "Azərbaycanın idman tarixində Heydər Əliyev mərhələləri" kitabımın (12.05.2013), Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə akademiyanın akt zalında "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı" (1918-2018) kitabımın təqdimat mərasimi keçirildi (25.05.2018). Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən 10 qat "ilin ən yaxşı tədqiqatçı jurnalisti" adına, 2018-ci ildə isə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "İlin elm adamı" adına layiq görülmüşəm. Bu tədbirlər şəxsən Azad müəllimin təşəbbüsü ilə baş tutmuşdu.

Azad müəllimin müdriklik və sadəlik, sərtlik və zəriflik, tələbkarlıq və qayğıkeşlik kimi böyük insani keyfiyyətlərinin şahidi idim. Rəhbərlik etdiyi Gənclər və İdman Nazirliyində, idman və geniş ictimaiyyət arasında, dostları, tanışları yanında şəxsiyyəti böyük tərbiyə məktəbinə çevrilən Azad müəllimin ən ümdə xarakterik cəhətlərindən biri və bəlkə də birincisi onun təvazökarlığı və ürək genişliyi idi. Məncə, insanlığın ən yüksək keyfiyyəti də onun təvazökarlığı və ürək genişliyidir. El arasında bir misal var: "Ağac bar gətirəndə başını aşağı əyər". Bu deyimin böyük mənası var. Azad müəllimdəki insani xüsusiyyətlərdən biri də onun insanlara qarşı mehribanlığı, onları başa düşməyi, dərdlərinə şərik olması və təvazökarlığı idi.

Azad müəllim özünəməxsus səy və bacarıqla öz vəzifəsinə yanaşırdı, o, işdə olan çətinliklərdən çəkinmirdi, onları bacarıqla həll edirdi. Boy - buxun, səs elə bil ki, Allah tərəfindən ona xüsusi bəxş edilmişdi və ən əsası insanpərvərlik, Vətəni sevmək, insanların qayğısına qalmaq xüsusiyyətləri Azad müəllimdə xüsusilə nəzərə çarpırdı. Azad müəllimin zahiri görünüşü çox zəhimli və ciddi olsa da, amma ürəyi çox yumşaq və rəhimli idi.

Azad müəllim ömrünün sonunadək Azərbaycanın bədən tərbiyəsi və idman sahəsinə sədaqətlə xidmət etdi. Son illər sağlamlığında müəyyən problemlər olsa da, yorulmaq bilmədən çalışırdı. İdmanın, Olimpiya Hərəkatının inkişafı ilə bağlı maraqlı ideyaları vardı. O, dövrünün səməndər quşu tək insanlarda işıqlı gələcəyə ümid yaradırdı. Azad Rəhimov əqidəli, saf, təmənnasız insan kimi yaşadı. Yorulmaz fəaliyyəti və yaradıcı əməyi ilə nurlu bir iz qoydu.

Azərbaycanda gənclərlə iş sahəsində xidmətlərinə və ictimai fəaliyyətinə görə Azad Rəhimov müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" və "1-ci dərəcəli Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir.

Onun ölüm xəbəri bizi sarsıtdı. Həyatının mənasını xalqına xidmət etməkdə, insanlara yaxşılıq etməkdə görən, yeri həmişə görünən qeyrətli, vətənpərvər Azərbaycan oğlu ədəbiyyətə qovuşdu.

Təbiət əbədidir. Yer, göy əbədidir. Bir də bizi yaradan Allah əbədidir. İnsan gəlib-gedəcək, gec-tezliyi var. Lakin əsl insan o insandırki, həyatını başa vurub gedəndən sonra onu tanıyanların yaddaşında bir ölməzlik qoyur. Sağlığında təmiz ad-san qazanır. Doğmalarına, qohum-əqrəbasına baş ucalığı gətirir. Tanınmış ictimai-siyasi xadim Azad Rəhimov da belə insanlardan biri idi. Bacarıqlı təşkilatçı, rəhbərlik etdiyi kollektivin həqiqi lideri, səmimi, xeyirxah və təvazökar insan, gənclərin və idman ictimaiyyətinin dostu Azad Rəhimovun əziz xatirəsi onu sevənlərin qəlbində əbədi yaşayacaqdır.

***Dilqəm Quliyev,***
***pedaqogika üzrə elmlər doktoru, professor***

## *Ədalət təmsilçimiz Tokio Olimpiadasında hakimlik edəcək*

Avropa Karate Federasiyası hakimlər komissiyasının üzvü Cahangir Babayev Tokio Yay Olimpiya Oyunlarını idarə edən 15 hakim sırasına daxil edilib.

Milli Karate Federasiyasından "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, azərbaycanlı beynəlxalq hakimin fəaliyyətinə yüksək dəyər verən Dünya Karate Federasiyasının (WKF) hakimlər komitəsi bu barədə qərar qəbul edib.



Xatırladaq ki, Azərbaycan Milli Karate Federasiyası hakimlər komitəsinin sədri, 5-ci dan qara kəmər sahibi, Əməkdar məşqçi, Cahangir Babayev 198 dövlətin üzvü olan WKF tərəfindən 2013-cü ildə dünyanın "Ən yaxşı hakimi" seçilib.

O, həmçinin son iki İslam Həmrəyliyi Oyunları və Avropa Oyunlarının hakimi olub. Bakıda 1-ci Avropa Oyunlarında məhsuldar fəaliyyətinə görə C.Babayev Azərbaycan Prezidentinin "Fəxri fərmanı" ilə təltif edilib.

Məşqçi kimi onun yetirmələri arasında dünya və Avropa çempionatlarının, Avropa və İslam Həmrəyliyi Oyunlarının qalib və mükafatçıları var.

## Millimizin Avro-2021-dəki potensial rəqibləri müəyyənləşdi

Qadın voleybolçular arasında 2021-ci ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsi başa çatıb. Qitə birinciliyinin final mərhələsinin bütün iştirakçıları müəyyənləşib.

Belarus, Bosniya və Herseqovina, Macarıstan, Yunanıstan, İspaniya, Slovakiya, Finlandiya, Fransa, Ukrayna, Çexiya, İsveçrə və İsveç millileri seçmə mərhələdən Avro-2021-ə yüksəliblər.

Azərbaycan yığması final mərhələsinə Avro-2019-un nəticələrinə görə vəsiqə qazanan 8 ən yaxşı komandadan biridir. Millimizlə yanaşı, Belçika, Almaniya, İtaliya, Niderland, Polşa, Rusiya və Türkiyə də qitə çempionatında gücünü sınayacaq.

Avro-2021-in oyunları avqustun 18-dən sentyabrın 4-dək Bolqarıstan, Rumıniya, Serbiya və Xorvatiyada keçiriləcək.

## *Türkiyəli güləşçilər Bakıda təlim-məşq toplanışındadırlar*

Türkiyənin sərbəst güləş üzrə gənclərdən ibarət millisi Bakıda təlim-məşq toplanışı keçir. Olimpiya Güləş Mərkəzində keçirilən birgə təlim-məşq toplanışı mayın 24-dək davam edəcək. Həm fiziki, həm də taktiki-texniki çalışmaların yer aldığı hazırlıq prosesi qarşıdan gələn yarışlara, o cümlədən iyunun sonu - iyulun əvvəllərində Almaniyanın Dortmund şəhərində keçiriləcək gənclərin Avropa çempionatına hazırlıq xarakteri daşıyır.

Türkiyənin ölkəmizə yeni təyin olunmuş səfiri Cahit Bağcı Azərbaycan Güləş Federasiyasının təlim-məşq bazasında olub. Həm Türkiyə, həm də Azərbaycan yığmalarının məşqçiləri ilə görüşən səfir onlarla xatirə şəkli çəkdirib.

# Veteran cüdoçularımız Moskvada ikinci oldular



Mayın 15-də Rusiyanın paytaxtı Moskvada veteran cüdoçular arasında polis, ordu və güc strukturlarının 15-ci beynəlxalq turniri təşkil olunub. Komanda şəklində keçirilən yarışda Rusiyanın 6 təmsilçisi ilə yanaşı, Belarus, İspaniya, Yunanıstan, Monqolustan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Ermənistan, Gürcüstan və Azərbaycanın hüquq-mühafizə orqanlarının yığma komandaları mübarizə aparıb.

Azərbaycan Cüdo Federasiyası və Azərbaycan Veteran Cüdoçular Assosiasiyasının dəstəyi ilə Moskvaya yollanan komandamız turnirdə məşqçi Vüsal Cəfərovun rəhbərliyi altında iştirak edib.

Vüqar Babayev (66 kq), Nadir Babayev (73 kq), Azər Fətullayev (81 kq), Ziya Namazov (90 kq) və Elxan Rəcəblidən (+90 kq) ibarət komandamız püşkün nəticəsinə görə ilk görüşünü Ermənistanın Daxili İşlər Nazirliyinin komandasına qarşı keçirib. Rəqiblərinə heç bir şans verməyən cüdoçularımız bu görüşdə 5:0 hesablı qələbə qazanaraq növbəti mərhələyə yüksəlib. İkinci görüşdə Qırğızıstan komandası ilə qarşılaşan veteran cüdoçularımız bu dəfə də rəqiblərindən üstün oldular -5:0 Yarımfinalda komandamızın rəqibi Tacikistan komandası olub. Gərgin mübarizə şəraitində keçən görüşdə komandamız 3:2 hesabı ilə qalib gələrək finala vəsiqə qazanıb. Həlledici görüşdə isə yığmamız Rusiyanın Daxili İşlər Nazirliyinin komandasına 3:2 hesabı ilə məğlub olaraq gümüş medala sahib çıxıb.

Turnirdə üçüncü yerləri isə Belarus və Rusiyanın Milli Qvardiya komandaları tutub.

Yarışın qalib və mükafatçıları diplom, medal və kubokla təltif olunublar.

Qeyd edək ki, beynəlxalq turnirdə Azərbaycanın Olimpiya dərəcəli hakimi Fariz Hüseynov da ədalət təmsilçisi qismində görüşlərin idarə edilməsində iştirak edib.

# Azərbaycan ilk dəfə Yay Olimpiya Oyunlarında badminton yarışlarında təmsil olunacaq

Lisenziya uğrunda keçirilən kişi badmintonçuların şəxsi yarışında milli komandamızın lideri Edi Reski Dvіçayo qalib gələrək bu yay Yaponiyanın paytaxtı Tokioda keçiriləcək 4 illiyin zirvə yarışında ölkəmizi təmsil etmək şərəfinə layiq görülüb. Təsnifat reytinqində 31-ci olan Edi Olimpiadaya lisenziyanı təmin edib. Xüsusilə 2019-cu ildə Kamerun və Əlcəzairdə keçirilən beynəlxalq turnirlərdə qazanılan qalibiyyət badmintonçumuzun lisenziya şanslarını əhəmiyyətli dərəcədə artırıb.




Avropa Badminton Konfederasiyasının rəsmi saytı Avropadan Olimpiadaya lisenziya qazanan badmintonçuların siyahısını dərc edib. Bu yekun siyahı olmasa da, kişi badmintonçuların şəxsi yarışında böyük ölçüdə dəyişikliklər gözlənilmir. Yekun siyahı iyunun 15-də Dünya Badminton Federasiyası tərəfindən açıqlanacaq. Yekun olimpiya təsnifat reytinqində xalların hesablanması badmintonçuların olimpiya təsnifat dövründə iştirak etdiyi və daha yüksək xallar topladığı 10 beynəlxalq turnirin nəticələrinə görə toplanıb və buna əsasən müəyyənləşdirilib.

Olimpiya oyunlarında 38 kişi badmintonçu şəxsi kateqoriyada iştirak edəcək. 35 badmintonçu reytinq xalları hesabına olimpiadada mübarizə aparacaq. Digər 3 lisenziya isə Beynəlxalq Olimpiya Komitəsi, Dünya Badminton Federasiyası və lisenziya əldə edə bilməyən qitədən müvafiq ölkənin yerli federasiyasının daxil olduğu üçtərəfli komissiyanın qərarına əsasən veriləcək.

Yay Olimpiya Oyunları 2021-ci il iyulun 23-dən avqustun 8-dək keçiriləcək.

## *Dünya çempionatında 13 cüdoçumuzun iştirakı planlaşdırılır*

İyunun 6-dan 13-dək Macarıstanda cüdo üzrə dünya çempionatı keçiriləcək. Budapeşt şəhərində təşkil ediləcək lisenziya xarakterli yarışda Azərbaycanın 13 cüdoçusunun iştirakı planlaşdırılır. Belə ki, kişilər arasında Davud Məmmədsoy, Kəramət Hüseynov (hər ikisi 60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (hər ikisi 66 kq), Nurlan Osmanov (73 kq), Murad Fətiyev, Hidayət Heydərov (hər ikisi 81 kq), Elmar Qasımov (100 kq), Uşangi Kokauri (+100 kq) mübarizə aparacaqlar.

Qadınların yarışında isə Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq), İrina Kindzerska (+78 kq) güclərini sınayacaqlar.

# Kikboksinq Federasiyasında yeni təyinat rəsmiləşdirilib

Azərbaycan Kikboksinq Federasiyasının (AKF) ofisində yeni təyinat rəsmiləşdirilib. AKF-dən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə iş adamı Ədalət Kazımov federasiya prezidenti Orxan Əliyev tərəfindən AKF İdarə Heyətinin üzvü təyin olunub.

Təyinat zamanı AKF-nin rəsmiləri, federasiyanın prezidenti Orxan Əliyev, 1-ci vitse-prezident Ehram Məcidov, baş katib və milli komandanın rəisi Sadıx Bağırov iclas keçirib.

AKF-nin yeni İdarə Heyətinin üzvü Ədalət Kazımov ona böyük etimad göstərdiyinə görə ilk növbədə federasiyanın fəxri prezidenti, Milli Məclisinin sədr müavini cənab Adil Əliyevə, həmçinin rəhbərlik heyətinə öz təşəkkürlərini bildirib, kikboksinq idman növünün inkişafında, həmçinin federasiyanın fəaliyyətində əlindən gələni əsirgəməyəcəyini vurğulayıb.



## *Komitə rəhbəri lisenziya qazanmış idmançılarla görüşüb*

Azərbaycan Milli Paralimpiya Komitəsinin (MPK) prezidenti İlqar Rəhimov parataekvondo üzrə Avropa təsnifat turnirində iştirak edən paralimpiyaçılar ilə görüşüb. Görüşdə komitənin baş katibi Kamal Məmmədov, parataekvondo üzrə milli komandanın baş məşqçisi Fərid Tağızadə komandanın digər üzvləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan AMPK-nın prezidenti İ.Rəhimov yarışların uğurlu olduğunu və bu yarışlarda Tokio-2020 Yay Paralimpiya Oyunlarına 4 lisenziya qazanıldığını qeyd edib. İ.Rəhimov qeyd edib ki, parataekvondo komandası daha da əzmlə çalışmalı və növbəti yarışlarda daha yaxşı nəticələr əldə etməlidir. Qarşıdakı əsas hədəf Tokio-2020 Paralimpiya Oyunlarıdır. Bu oyunlara cəmi 3 ay vaxt qalıb. Bu vaxt ərzində var qüvvənizlə məşq etməli və ümidləri doğrultmalısınız".

Komandanın baş məşqçisi F.Tağızadə yarışların gərgin mübarizə şəraitində keçdiyini, bununla belə, qarşıya qoyulan əsas hədəfə - Tokio 2020-yə lisenziyalar qazanmağa nail olunduğunu qeyd edib.




# Arif Rəhimov avtoidman dünyasının aparıcı media qurumlarının əməkdaşları ilə görüşüb

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) icraçı direktoru Arif Rəhimov iyunun 4-6-da Bakıda 5-ci dəfə keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinə sayılı günlərin qaldığı ərəfədə avtoidman dünyasının aparıcı media oyumlarına geniş məzmunda müsahibə verib.

BŞH-dən verilən məlumata görə, müsahibədə "Reuters" xəbər agentliyi və ESPN idman kanalı ilə yanaşı, dünyanın bir sıra qabaqcıl avtoidman xəbər portallarından, o cümlədən "Motorsport", "Autosport", "Racer", "Racefans", "Autocar" və "MotorsportWeekly"dən jurnalistlər iştirak ediblər.

Görüşün əvvəlində şirkətin rəhbəri Arif Rəhimov yarışa hazırlıq işlərindən danışıb, həmçinin yarış çərçivəsində COVID-19 ilə bağlı görülən təhlükəsizlik tədbirləri barədə jurnalistləri ətraflı şəkildə məlumatlandırıb.

Daha sonra A.Rəhimov builki yarışın tamaşaçısız keçirilməsi, Formula 1 təqviminə daxil olan yeni yarışların Bakı yarışına mümkün təsirləri, Azərbaycan Qran-Prisinin Formula 1 dünya çempionatına verdiyi töhfələr, bu ilin iyun ayında Avro-2020 çərçivəsində paytaxt Bakıda keçiriləcək futbol oyunlarının Formula 1 Azərbaycan Qran-Prisinə təsirləri və digər aktual məsələlərə dair verilən sualları geniş şəkildə cavablandırıb.



A.Rəhimov müsahibə zamanı deyib: "Ötən ilin dekabrında baş tutmuş Zəfər Paradını nəzərə almasaq, Formula 1 Azərbaycan Qran-Prisi koronavirus pandemiyasının başladığı tarixdən sonra paytaxt Bakının ev sahibliyi etdiyi ilk irimiqyaslı tədbir olacaq. Bakıda bu yay keçiriləcək Avro-2020 futbol oyunları Formula 1 Azərbaycan Qran-Prisi ilə müqayisədə koronavirusla mübarizə çərçivəsində tamaşaçıların hərəkətinin səmərəli idarəolunması baxımından daha əlverişlidir. Düşünürəm ki, bu səbəbdən sözügedən oyunlarda tamaşaçıların iştirakı nəzərdə tutulur. Bizdə isə eyni yanaşmanın indiki halda tətbiqi praktiki cəhətdən mümkün deyil".

"Bu il bizim ölkəmiz sayca 5-ci dəfə Formula 1 Azərbaycan Qran-Prisinə ev sahibliyi edəcək. Formula 1 rəhbərliyi (FOM) ilə olan mövcud müqaviləmiz 2024-cü ilə qədər qüvvədədir. Növbəti 3 ildə birlikdə hansı işləri görəcəyimizə dair müzakirələrə hələlik başlamamışıq. Son illər FOM ümumiyyətlə uzunmüddətli müqavilələr imzalamağa müsbət yanaşmır. Yeni rəhbərlik əməkdaşlığı daha çox qısa müddətli müqavilələr çərçivəsində aparmaqda maraqlıdır. Bu yanaşma bizim üçün də sərfəli olandır", - deyə A.Rəhimov əlavə edib.

BŞH rəsmisi vurğulayıb ki, son vaxtlar müzakirə olunan məsələlərdən biri də koronavirus pandemiyasının davam etdiyi bir dövrdə yarış iştirakçılarının Formula 1 təqvimində yer alan ölkələr arasında fasiləsiz və məhdudiyyətsiz səyahətinin təmin olunmasıdır. Bu məqsədlə Türkiyə ilə Azərbaycan Qran-prilərinin yerlərinin dəyişdirilməsi barədə məsələnin gündəmdə olduğundan xəbərdarıq. Bununla bağlı onu deyə bilərəm ki, bu addımın atılması mümkün deyil. Çünki həmin ərəfədə Bakı həm də Avro-2020-nin oyunlarına ev sahibliyi edəcək. Başqa sözlə, iyunun 12-də Bakı həmin çempionat çərçivəsində burada keçiriləcək qarşılaşmaların birincisi üçün iştirakçıları qəbul edəcək. Bu da Azərbaycan Qran-Prisi üçün təklif olunan tarixlə üst-üstə düşür. Belə ki, biz Formula 1 Azərbaycan Qran-Prisini həmişəki vaxtında - iyunun 4-6-da keçirəcəyik.

# Santa-Suzanna səfəri uğurla başa çatıb

Azərbaycan komandası İspaniyanın Santa-Suzanna şəhərində təşkil olunan bodibildinq üzrə Avropa çempionatında uğurla çıxış ediblər. Turnirdə mens fizik yarışlarında mütləq kateqoriyada idmançımız Rasim Həsənov bütün rəqiblərini qabaqlayaraq Avropa çempionu adına sahib olub. Mens fizik yarışlarında boyu 182 santimetrdən yüksək olan idmançıların mübarizəsində təmsilçimiz İmaş Qulizadə bürünc medal qazanıb. Avropa çempionatında 95 kiloqram çəki dərəcəsində iki idmançımız fəxri kürsüdə yer alıb. Belə ki, Fuad Quluzadə gümüş, Nizami Misirov isə bürünc medal əldə ediblər.



Bizim müsahibə

*"Yazıçı, qaranlığı yaran işıq olmalı və millətini yazdığı əsərlərlə inandırmağı və öz ardınca aparmağı bacarmalıdır". Bu sözlər tanınmış yazıçı, rejissor, jurnalist, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğluna məxsusdur. Bu ilin mart ayının 16-da 71 yaşı tamam olan Ağalar müəllim geniş dünya görüşünə məxsus olan ziyalılardan biridir. "Olimpiya dünyası" qəzeti ömrünün 71-ci baharını yaşayan Ağalar İdrisoğlu ilə müsahibəni oxuculara təqdim edir.*



# "İnsan öz xarakterini mükəmməl səviyyədə təhlil etməyi bacarmalıdır"

***- Ağalar müəllim, söhbətimizə keçmişdən, uşaqlıq illərinizdən başlamaq istərdik. Uşaqlığınız necə olub?***

- Çox vaxt uşaqlıq illərimdən danışmağı xoşlamıram. Desəm ki, uşaqlıq illəri keçirməmişəm bu daha düzgün olar. Çünki ailəmiz kasıb yaşadığına görə artıq 10 yaşımdan günün birinci hissəsi məktəbə, ikinci hissəsi isə işə getmişəm. Çalışmışam ki, qazandığım pul ailəyə az da olsa kömək olsun. Ən azından anamın müalicəsinə köməklik eləsin. Dörd il naxırçı olmuşam. Masallının inək-camışını otarmışam. Ona görə də mənə pul veriblər. Sonra 3 il, yəni 17 yaşıma qədər Masallı Kərpic-Kiremit zavodunda atamın yanında fəhlə işləmişəm.

Amma çalışırdım ki, dərslərimi yaxşı oxuyum ki, bu cəhənnəm əzabından qurtulum...

Boş vaxt tapan kimi bədii əsərlər oxuyurdum. O vaxtlar Masallıda çap olunan "Çağırış" və "Azərbaycan pioneri" qəzetlərinə kiçik həcmli hekayələr, miniatürlər, məqalələr göndərirdim. Eləcə də orta məktəbin divar qəzetinə çoxlu yazılar yazırdım. Arzum jurnalist olmaq idi, amma teatr arzuma güc gəldi. Çünki ara-sıra Masallıdakı Şakir Həsənov və Adil Səfərovun yaratdıqları, Cənub bölgəsində məşhur olan Miniatür teatrında da çıxış edirdim.

***- 50 ildən artıqdır ki, peşəkar teatr sənətində çalışırsınız. Aktyor kimi müxtəlif xarakterli rollarda çıxış etmisiniz. İlk rolunuz yadınızdadırmı?***

- İlk böyük rolum Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsində oxuyan vaxtı Cəfər Cabbarlının "Almaz" pyesində Barat rolu olub. Sumqayıt Dövlət Dram Teatrında Anarın "Adamın-adamı" tamaşasında Fənd Fərəc və Cəfər Cabbarlının "Vəfalı Səriyyə" tamaşasında Məhərrəm rolları ilk böyük rollarım olub. Moskvada tələbə olduğum vaxt Üzeyir Hacıbəyovun "Arşın mal alan" tamaşasında Əsgər və Mixail Bulqakovun "Kabala svyatoş" tamaşasında Jan Batist Molyerin rolunu oynamışam. Sumqayıt teatrında isə Ernest Heminqueynin rolunu xalq şairi Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" tamaşasında oynamışam. Teatrlarda işlədiyim müddətdə qırxdan artıq tamaşalarda ayrı-ayrı səpgilərdə rollar oynamışam. Amma istəyim rejissorluğa daha çox olduğundan, az bir vaxtda özümü bu sənətə yönəltmişəm. Hələ tələbəlik illərimdən dram dərnəklərinə rəhbərlik etmişəm. Sonra Sumqayıt Dövlət Dram Teatrında aktyor işimlə paralel 1977-ci ildə bu şəhərin tarixində ilk dəfə "Ümid" adlı teatr-studiyası yaratmışam. Bu teatr-studiyanın da 300-dən artıq üzvü olub. İki ildən sonra maraqlı tamaşalarına görə bu kollektivə Xalq teatrı adı verilib və Sumqayıt Gənclərinin Xalq Teatrı adlanıb. Tezliklə rejissor kimi təhsilimi davam etdirməyi qarşıma məqsəd qoyub, Moskvada A.V.Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun (indiki Teatr Sənəti Akademiyası) rejissorluq fakültəsinə qəbul olmuşam və beş il orada təhsil almışam.



***- Sizin həm də tərcüməçi kimi də fəaliyyətiniz olub.***

- Elədi. Dünyanın ən məşhur dramaturqlarının xoşuma gələn pyeslərini dilimizə tərcümə etmişəm. Onların bəzilərinə özüm, bəzilərinə də başqa rejissorlar quruluş veriblər. Ümumiyyətlə, dünyanın ən tanınmış 15 dramaturqunun Azərbaycanın peşəkar teatrına gəlişi bilavasitə mənimlə bağlıdır. Onların pyeslərinə ilk dəfə Azərbaycan səhnəsində mən quruluş vermişəm.

***- Siz yüzdən artıq teatr tamaşalarına və teatrlaşdırılmış kütləvi tamaşalara quruluş vermisiniz. Özünüzü daha çox hansı peşə sahibi kimi hesab edirsiniz?***

- Aktyorluq əgər Allah vergisidirsə, rejissorluq artıq peşədir. Bu sənətin gərək hökmən təhsilini alasan. Rejissor öz sənəti ilə bərabər, demək olar ki, bütün sənətlərdən də xəbərdar olmalıdır. Ədəbiyyatı, tarixi, incəsənəti, psixologiyanı, təbabəti, siyasəti daha mükəmməl bilməlidir. İnsan öz xarakterini mükəmməl səviyyədə təhlil etməyi bacarmalıdır. Məhz ona görə də rejissor sənəti dünyada ən çətin sənət hesab olunur. Qaldı kütləvi tamaşalara və teatr tamaşalarına quruluş verməyə, əlbəttə, kütləvi tamaşalara quruluş vermək daha çətindir. Çünki kütləvi tamaşalar hazırlayanda rejissor ən azından 500-1000 və hətta daha çox adamla işləyir. Onların da demək olar ki, ən azından 80 faizi peşəkar aktyor yox, həvəskarlar olurlar. Burada rejissordan daha böyük təxəyyül, səbr, uzaqgörənlik və həmin adamları öz ideyasına inandırmaq üçün daha böyük bilik tələb edilir.

***- Gəlin bir qədər də müasir teatrlarda olan problemlərdən danışaq.***

- Mən 26 il Azərbaycanın ayrı-ayrı teatrlarına rəhbərlik etmişəm. Sovetlərin vaxtında hazırladığımız tamaşalara dövlət tərəfindən quruluş xərcləri ayrılırdı və biz tamaşa hazırlayanda maliyyə sarıdan elə də əziyyət çəkmirdik. Amma müstəqillik dövründə hansısa "qara əl" dövlət səviyyəsində verilən həmin quruluş xərclərini kəsdi və teatrlar məcbur oldu ki, həmin quruluş xərcləri üçün pulu özü qazansın. Ona görə də bu gün dünya səviyyəsinə çıxarmaq üçün yüksək peşəkar tamaşa hazırlamağa çox böyük maliyyə lazımdır. Bu da çox çətindir. Çünki teatrın buna imkanı yoxdur.

***- Bu gün teatrlarımızın repertuarı sizi qane edirmi?***

- Əvvəllər Mədəniyyət Nazirliyi dramaturqlardan pyesləri alıb, onların qonorarını verirdi və həmin pyesləri də teatrlar tamaşaya qoyurdu. Artıq uzun illərdir ki, Mədəniyyət Nazirliyi həmin pyesləri almır və teatrların da maliyyə imkanı yoxdur ki, pyes alsın. Ona görə də artıq dramaturqlar da demək olar ki, pyeslər yazmırlar. Deməli, müasir pyeslərin yazılmaması Azərbaycan dramaturgiyasına çox böyük zərbədir. Məhz buna görə də Azərbaycanda dramaturgiya ağır bir vəziyyətdədir. Dünya dramaturqlarının yaxşı pyeslərini tərcümə etmək üçün də tərcüməçiyə pul vermək lazımdır. Teatrların buna da imkanı yoxdur. Ona görə də bu gün teatrlarda sensassiya olan tamaşalar yaranmır.

***- Bu gün əksəriyyət Azərbaycan teatrlarına az sayda adamın gəldiyini düşünür. Tamaşaçı salonu adətən boş qalır. İnsanların belə düşüncəyə sahib olması sizcə nə ilə bağlıdır?***

- Gəlin danmayaq ki, biz elə də teatral xalq deyilik. Bizdə musiqiyə, meyxanaya, hansısa şouya olan maraq teatrdan daha çoxdur. Amma mənim quruluşçu rejissoru olduğum Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında tamaşaçı problemi yoxdur.

***- Bildiyimizə görə 15 kitabın müəllifisiniz. Yaradıcılığınızda daha hansı yeniliklərin olacağı gözlənilir?***

- Artıq 10 kitabım da çap olunmaq üçün hazırdır, amma maliyyə imkanım yoxdur ki, onları çap etdirim. Sovet dövründə yazıçıların bir sanballı kitabı çap olunanda həmin kitabdan aldıqları qonorarla ən azından iki-üç il ailələrini dolandıra bilirdilər. İndi isə yazıçı yazdığı kitabı öz maliyyəsi hesabına çap etdirməli və sonra həmin kitabla kimlərinsə qapısını döyüb, onlara satmalıdır ki, heç olmasa, kitaba çəkdiyi xərcini götürə bilsin. Ona görə də bu gün yazıçılar çox çətin vəziyyətdə yaşayırlar. Ailəsinə hər gün heç olmasa, çörək pulu qazanmağı düşünən əsl yazıçıdan indi hansısa şedevr əsər gözləmək olarmı? Mənim bu gün yüzdən artıq çap olunmayan hekayəm, altı povestim, on pyesim, çoxlu publisist yazılarım, rejissor, aktyor sənəti ilə bağlı maraqlı təkliflərim, dərs vəsaitim var. Şah İsmayıl və İmam (Şeyx) Şamillə bağlı iki irihəcmli pyesim var. Bilirəm ki, onlar böyük oxucu və tamaşaçı marağı yarada bilər. Əfsus ki, maliyyə imkanına görə çap etdirə bilmirəm. Mənim kimi yüzlərlə yazıçılar var ki, kitablarını çap etdirə bilmirlər.

***- İstərdik bir qədər də Sumqayıt, Ağdam, Füzuli, Qusar, Mingəçevir teatrlarına verdiyiniz töhfələrdən danışasınız.***

- Uzun illər Sumqayıt və Ağdam teatrlarına rəhbərlik etmişəm. Həmin teatrların bədii rəhbəri və direktoru işləməklə yanaşı, çoxlu tamaşalara da quruluş vermişəm. Füzuli teatrı qaçqınlıq dövründə mənim köməkliyimlə Sumqayıtda məskunlaşmışdı. Onların da teatrında mənim rəhbərliyimlə tamaşalar hazırlanırdı. Qusar Dövlət Dram Teatrında 2012-ci ildə Mirzə Fətəli Axundovun "Hekayəti xırs quldurbasan" pyesinin ilk variantına quruluş vermişəm. Bu variantı da ilk dəfə məhz mən hazırlamışam. Həmin tamaşa hələ də teatrın repertuarındadır. 2019-cu ilin son dörd ayında Mingəçevir Dövlət Dram Teatrında iki tamaşaya quruluş vermişəm. Bunlar - Qənbər Şəmşiroğlunun (səhnələşdirənlər Nəriman Ocaqlı, Ağalar İdrisoğlu) "Caninin etirafı" iki hissəli məhəbbət odası və Nobel mükafatı laureatı Reynhard Kiblinqin "Mauqli" əsəri əsasında Nicat Kazımovla mənim səhnələşdirdiyim "Mauqlinin yeni il arzuları" tamaşaları olub. Hər iki tamaşa çox maraqla qarşılanıb. Hazırda quruluşçu rejissoru olduğum Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında xalq şairi Nəriman Həsənzadənin "Qarabağ Azərbaycandı, "Qarabağnamə"m İlhamdı" dramatik qəhrəmanlıq odasına quruluş verirəm. Bu tamaşada teatrın aparıcı aktyorları böyük həvəslə onlayn məşqlər edirlər. Pandemiya olduğuna görə hələ ki, teatr işləmir və səhnədə məşqlər edə bilmirik. Dövlət Gənc Tamaşaçılar Teatrı ilə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin birgə layihəsi olan bu tamaşa son vaxtlar Qarabağ müharibəsinə həsr olunan yeganə pyesdir.



***- Vətən müharibəsində qazanılan qələbə ilə bağlı hansısa bir əsəri səhnələşdirmək ideyası planlarınıza daxildirmi?***

- Bəli var. Vətən müharibəsi ilə bağlı bir neçə hekayə, çoxlu məqalə yazmışam. Hazırda isə "Şəhid anası" və "Ağdaban faciəsi" pyesləri üzərində işləyirəm. Sağlıq olsun. Yəqin ki, az bir vaxtda bu pyeslər də ərsəyə gələcək.

***- Gənc dramaturqlarımıza və yazıçılarımıza nə məsləhət vermək istərdiniz?***

- Yazıçı millətinin görən gözü, düşünən beyni və danışan dilidir. Dramaturqlar üçün isə bu gün yazmağa mövzular həddindən artıq çoxdur. Çünki ölkəmizdə bütün sahələrdə və ailə-məişətdə problemlər həddindən artıq çoxdur. Ona görə də gənc yazar özündə böyük təpər tapmalı və bunları yazmalıdır. Kimlər ki, bu problemləri, xalqın dərdini qələmə alıblarsa, onlar ədəbiyyatda dahilər kimi qalıb. Millətini öz canlarından çox sevən həm dünya, həm də Azərbaycanın dahi yazarları hakimiyyətin təpkilərinə, sürgünlərinə, həbslərinə baxmayaraq, öz ürək sözlərini, xalqın dərdini, problemlərini yazıblar. Məhz onların yazdıqları ilə bizim həmin dövrlər haqqında təsəvvürümüz var. Yazıçı, qaranlığı yaran işıq olmalı və millətini yazdığı əsərlərlə tərbiyə etməli, öz ardınca aparmağı bacarmalıdır. Yazıçı, gəmini idarə etməyi bacaran və həmin gəmini qayaların arasından böyük ustalıqla keçirən yüksək peşəkar kapitan olmalıdır.

Yazıçının işi daha çətin və əzablıdır. Amma yazıçı səbrlə, dözümlə bütün bu çətinliklərdən keçməyi bacarmalı və zamanın barometri, onun nəbzini tutmağı bacaran yüksək təfəkkürlü həkim olmalıdır.

*Azər Əlizadə*

# OLİMPİYA 20 DÜNYASI



## Qəzetimiz dünyanın ən yaxşı karikaturaçı rəssamlarını bir araya toplayıb

Bu il 20 yaşını qeyd edəcək "Olimpiya dünyası" qəzeti idmanın təbliği ilə yanaşı ölkədə və beynəlxalq aləmdə bir sıra tədbirlərin təşkilatçısı kimi tanınır. Bu işdə bizə Milli Olimpiya Komitəsi yaxından yardımçı olur. Bu müddət ərzində qəzetimizin təşkil etdiyi idman və mədəniyyət mövzusunda tədbirlər ölkə ictimaiyyəti arasında böyük rəğbət qazanıb.

"Olimpiya dünyası" bu sayında I və II Bakı Beynəlxalq Karikatura Müsabiqəsi ilə bağlı məqaləni olduğu kimi çoxsaylı oxucularına təqdim edir.

# Qəzetimiz bir sıra beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak edib

## I Bakı Beynəlxalq Karikatura Müsabiqəsinə təqdim olunmuş əsərlərdən ibarət sərginin açılışı

2004-cü il iyunun 28-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda Milli Olimpiya Komitəsi ilə "Olimpiya dünyası" qəzetinin idman mövzusunda birgə təşkil etdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsinə təqdim olunmuş əsərlərdən ibarət sərginin açılışı olub.

Qeyd edək ki, 2003-cü ilin sonlarında şərtləri bütün dünya karikaturaçılarına elan olunan müsabiqəyə planetin 26 ölkəsindən 70 rəssam 300-ə yaxın əsər göndərmişdi. Martın 6-da Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin sədrliyi ilə 9 nəfərdən ibarət münsiflər heyəti müsabiqəyə təqdim edilmiş əsərləri dəyərləndirmişdi.

Belə ki, Yaroslav Jarovski (Polşa) I, Vladimir Kazanevski (Ukrayna) II, Aleksey Talimonov (Böyük Britaniya) III yerləri tutmuşdular. Culiya Lisçenko (Ukrayna), Maurisio Da Kosta Patelli (Braziliya), Gennadi Şeqodayev (Rusiya), Sadık Pala (Türkiyə), Ümit Müfit Dinçay (Türkiyə), Hafiz Nəsiroğlu (Azərbaycan), Yaşar Səmədov (Azərbaycan), Yuri Kosobukin (Ukrayna), Vanq Vinxianq (Çin), Piyerpaolo Perrazzali (İtaliya), Riad Xəlil (Suriya), Andrey Puçkanyov (Belarus), Tomek Vorlszn (Polşa), Yu Lianq (Çin) və Steffen Jasnovski (Almaniya) həvəsləndirici mükafatlara layiq görülmüşdülər.

***Sərgini Azərbaycan Rəssamlar İttifaqının katibi Ağəli İbrahimov açaraq dedi:***

- Bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. Azərbaycan Milli Olimpiya Komitəsi ilə "Olimpiya dünyası" qəzetinin birgə təşkil etdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsinə təqdim olunmuş əsərlərdən ibarət sərgi sənətsevərlərin doğma ünvanı olan V.Səmədova adına sərgi salonunda açılır. Biz MOK-la yarandığı gündən, xüsusilə 1997-ci ildən sıx əməkdaşlıq edirik. Bu vaxta qədər birlikdə bir sıra tədbirləri uğurla həyata keçirmişik. Milli Olimpiya Komitəsinin nəşri olan "Olimpiya dünyası" qəzeti də mədəni tədbirlərin fəal təşkilatçılarındandır. Belə ki, ötən il adıçəkilən qəzet yerli karikaturaçı rəssamlar arasında idman mövzusunda müsabiqə təşkil etmişdi. Həmin müsabiqəyə 50-yə yaxın əsər təqdim olunmuşdu. Doğrudan da, ARİ-nin MOK-la birgə əməkdaşlığı nəticəsində rəssamlarımız gözəl əsərlər yaradırlar. Son illər ölkəmizdə karikatura sənəti sürətlə inkişaf edir. Azərbaycanda Karikaturaçılar Birliyi, Karikatura Evi yaradılıb. Hər il dünyanın müxtəlif ölkələrində keçirilən karikatura müsabiqə və festivallarına rəssamlarımız da qatılaraq, uğurlar qazanırlar. Bu müsabiqədə də 26 ölkədən 70 rəssamın 300-ə yaxın əsərlə iştirak etməsi böyük hadisə sayıla bilər. Sevindirici haldır ki, təşkilatçılar müsabiqə iştirakçılarının hərəsinin bir əsərini xüsusi kataloqda toplayaraq, nəfis şəkildə çap ediblər.

***Sonra söz Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə verildi:***

- Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar! Bu gün biz böyük bir əlamətdar hadisə münasibətilə bura toplaşmışıq. MOK və onun nəşri olan "Olimpiya dünyası" qəzeti I Bakı Beynəlxalq Karikatura Müsabiqəsinin yekunları ilə bağlı sərgi təşkil edib. Qeyd etməliyəm ki, MOK təkcə ölkədə idmanın inkişafı ilə məşğul olmur, o həm də respublikada Olimpiya Hərəkatının, olimpizmin təbliğini əsas vəzifələrindən hesab edir. 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilən cənab İlham Əliyev ölkədə olimpizmin, Olimpiya Hərəkatının təbliğini əsas məqsəd sayaraq onları



Aleksey Talimonov (İngiltərə), III yer

ön plana çəkdi. Bu da təkcə idman deyil, onunla əlaqədar olan digər sahələrin təbliğ olunmasına şərait yaratdı. Bununla bağlı olaraq MOK ARİ ilə birlikdə bir neçə müsabiqə və sərgilər təşkil etmişdi. Sidney Olimpiadası günlərində Avstraliyada keçirilən beynəlxalq sərgidə Azərbaycan rəssamlarının da əsərləri yer almışdı. MOK ARİ ilə birlikdə karikatura müsabiqəsi də keçirmişdi. Biz I Bakı




Yaroslav Jarovski (Polşa), I yer

Beynəlxalq Karikatura Müsabiqəsinin şərtlərini elan edəndə bu qədər ölkədən rəssamın iştirak edəcəyini təsəvvürümüzə gətirməzdik. Lakin biz dünya karikaturaçılarını bir yerə toplaya bildik və bu gün siz onların əsərlərinə baxırsınız. Bizə bu müsabiqənin təşkilində yaxından köməyinə görə rəssamlar ittifaqına öz minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, MOK bundan sonra da ümummilli liderimiz Heydər Əliyevin ideyalarını əldə rəhbər tutaraq böyük işlər görəcək, ölkədə Olimpiya Hərəkatının genişlənməsi istiqamətində öz layiqli işini davam etdirəcək.



Vladimir Kazanevski (Ukrayna), II yer

***Söz "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyevə verildi:***

- Hörmətli xanımlar və cənablar!

Qeyd edildiyi kimi, müsabiqəyə dünyanın 26 ölkəsindən 300-ə yaxın əsər daxil olub. Martın 6-da 9 nəfərdən ibarət jüri müsabiqəyə təqdim olunmuş əsərləri qiymətləndirdi. Birinci yerə Polşa, ikinci yerə Ukrayna, üçüncü yerə isə Böyük Britaniya rəssamları layiq görüldülər. 15 müəllifin əsəri də həvəsləndirici mükafat qazandı. Sevindirici haldır ki, onların içərisində iki azərbaycanlı rəssam - Hafiz Nəsiroğlu və Yaşar Səmədov da var. Afina Olimpiya Oyunları ərəfəsində təşkil edilən bu müsabiqənin əsas mahiyyəti idmanın təbliğinə keyfiyyətcə yeni müstəvidə - incəsənət və mədəniyyət müstəvisində də nail olmaqdır. Bu əsərlər Afinada Olimpiya oyunları ərəfəsində keçiriləcək Azərbaycan günlərində nümayiş etdiriləcək. Əsərləri kataloqa daxil edilmiş müəlliflərə kataloq və diplomlar göndəriləcək. Ümid edirəm ki, bundan sonra da "Olimpiya dünyası" qəzeti müxtəlif tədbirlərin təşkilatçısı və təşəbbüsçüsü rolunda çıxış edəcək. Bu işdə bizə yaxından yardımçı olmuş Milli Olimpiya Komitəsinə və Azərbaycan Rəssamlar İttifaqına minnətdarlığımızı bildiririk.

Azərbaycan Karikaturaçılar Birliyinin prezidenti Seyran Cəfərli öz çıxışında tədbirin təşkilində xüsusi əməyi olan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadəyə, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyevə və qəzetin əməkdaşı, Azərbaycan Karikatura Evinin direktoru Soltan Soltanlıya minnətdarlığını bildirdi. O qeyd etdi ki, dünyanın müxtəlif ölkələrindən bu müsabiqəyə əsərlərin göndərilməsi respublikamızın bu sahədəki nüfuzundan xəbər verir.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə birinci yerin sahibi Yaroslav Javorskinin diplom və mükafatını Polşanın ölkəmizdəki səfirliyinin birinci katibi Voyceh Quretskiyə təqdim etdi. V.Quretski bu münasibətlə nitq söylədi.

- Mən bu tədbirin təşkilatçıları olan MOK və "Olimpiya dünyası" qəzetinə öz minnətdarlığımı bildirirəm. Bu, çox böyük bir müsabiqədir. Polşalı rəssam Y.Jarovskinin birinci yeri tutması bizi çox sevindirir. Azərbaycan mənim ikinci vətənimdir, ona görə qarşıdan gələn Olimpiya oyunlarında ölkənizin idmançılarına uğurlar arzulayıram.

Müsabiqədə həvəsləndirici mükafata layiq görülmüş həmvətənlərimiz Hafiz Nəsiroğlu və Yaşar Səmədova da diplom, kataloqlar təqdim edildi.

Sonra Çingiz Hüseynzadə və Ağəli İbrahimov sərginin lentini kəsdilər.

## Sərgi haqqında təəssüratlar

***Hafiz Nəsiroğlu:***

- MOK-un və "Olimpiya dünyası" qəzetinin bu təşəbbüsünü dəstəkləyirik. Birinci yarışma yerli rəssamlar arasında təşkil edilmişdi. Bu dəfə isə beynəlxalq səviyyəli müsabiqənin şahidiyik. Təşkilatçılara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

***Yaşar Səmədov:***

- MOK və "Olimpiya dünyası" qəzeti çox əhəmiyyətli iş görüb. Müxtəlif ölkələrdə keçirilən beynəlxalq yarışlardan biri də respublikamızda təşkil edilib. Müsabiqə məni təmin edir. Sərgiyə dünyanın tanınmış karikaturaçıları qatılmışdılar. Sizə müvəffəqiyyətlər diləyirəm.

## II Bakı Beynəlxalq Karikatura müsabiqəsi

2006-cı ildə Milli Olimpiya Komitəsi və "Olimpiya dünyası" qəzetinin təşkilatçılığı ilə keçirilən II Bakı Beynəlxalq Karikatura müsabiqəsinə artıq 40 ölkədən - Azərbaycan, Argentina, Bolqarıstan, Braziliya, Serbiya, Çernoqoriya, Çin, Kosta-Rika, Almaniya, Uruqvay, Koreya, Fransa, Rusiya, Suriya, İspaniya, Macarıstan, Qazaxıstan, Fələstin, Türkiyə, Mərakeş, Kuba, İordaniya, İran, Kipr, İrlandiya, Kolumbiya, Yunanıstan, Ukrayna, İtaliya, Hindistan, Slovakiya, İsrail, Özbəkistan, Rumıniya, Polşa, Portuqaliya, İndoneziya, Makedoniya, İngiltərə və Misirdən 163 rəssam 500-dən çox əsərini göndərib.

Dekabrın 24-də II Bakı Beynəlxalq Karikatura müsabiqəsinə yekun vurulub. Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un Nəşriyyat, İnformasiya və Olimpiya Komitələri ilə Əlaqələr İdarəsinin rəisi Cəmaləddin Rəhmanov, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü Zərifə Salahova, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, Karikaturaçılar Birliyinin direktoru Seyran Cəfərli, karikaturaçı rəssamlar Rahim Baqqal Askari (İran), Miroslav Hajnos (Polşa), Hüseyn Çakmak (Kipr) və Murad Yılmazdan (Türkiyə) ibarət münsiflər heyəti qalibləri müəyyənləşdirib. Yekun nəticədə türkiyəli karikaturaçı Oğuz Gurel II Bakı Beynəlxalq Karikatura Müsabiqəsinin qalibi adını qazanıb. Rəssam 200 AZN məbləğində pul mükafatı ilə təltif edilib. 2-ci yerin sahibi Kasso (Braziliya) 150 AZN, 3-cü yeri tutan Əliredza Kərimi Moxaddam (İran) isə 100 AZN məbləğində pul mükafatına layiq görülüb. 19 karikaturaçı isə həvəsləndirici mükafatlarla təltif olunub. Bunlar aşağıdakılardır: Murteza Albayraq, Ahmet Aykanat, Kamil Yavuz, Murat Kuruz, Muamer Olcay (hamısı Türkiyə), Karlos Amorim (Braziliya), Oleksiy Kustovski, Vladimir Kazanevski, Yuri Kosobukin (hər üçü Ukrayna), Qalim Boranbayev (Qazaxıstan), Sergey Sıçenko, İlya Katz (hər ikisi İsrail), Darko Drijevik (Serbiya), Masud Ziaei Zardakasoi (İran), Stefan Despodov (Bolqarıstan), Yordan Pop İliev (Makedoniya), Markin Bondaroviç (Polşa), Axmad Şolid (İndoneziya), Hasan Ahmed İsmail (Misir).

Qeyd edək ki, qəzetimizin rəsm mövzusunda təşki etdiyi tədbirlər bununla bitmir. Belə ki, "Olimpiya dünyası" qəzeti bu il də ənənəsinə sadiq qalıb. Belə ki, Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası, "Olimpiya dünyası" qəzeti ilə birgə "İdman və Ədalətli Oyunlar" mövzusunda rəsm müsabiqəsi elan edib. Aprelin 15-dən başlayan müsabiqə iyunun 15-dək davam edəcək.

# Fiziki tərbiyə və güllə atıcılığı

***Hər bir ölkə və xalqın dünya miqyasında tanınmasında idman və idmançıların da böyük əməyi var. İdmançılar əldə etdiyi qələbələrlə təmsil olunduğu dövləti başqa xalqlar arasında da tanıdır. Azərbaycan artıq çoxdandır idman ölkəsi olduğunu sübut edib. Ölkəmiz tanınmış idmançıları ilə fəxr edir. Çünki onlar dünya, Avropa miqyasında, Olimpiya Oyunlarında qazandıqları möhtəşəm uğurlarla üç rəngli Azərbaycan bayrağını layiqincə göylərə qaldırıblar.***

***Dəfələrlə beynəlxalq və regional əhəmiyyətli yarışlarda uğur əldə etməklə idmançılarımız həm də Azərbaycanı tərənnüm edib, onu tanıdıb. Son illər idman sahəsində ölkəmizin əldə etdiyi medallar buna əyani sübutdur. Bir il ərzində Azərbaycan idmançıları müxtəlif şəkilli yarışlarda birinci, ikinci və üçüncü yerləri tutmaqla Vətənə 900-dən çox medalla qayıdıb.***

***İdman sahəsində hər birinizin fəaliyyəti, gördüyünüz işlər və əldə etdiyiniz nailiyyətlər Azərbaycanda idmanın ad-sanını, şöhrətini yüksəldir. Qədim dövrlərdən indiyə qədər idman insanların həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir. İdmanla məşğul olan hər bir şəxs həm özünün fiziki sağlamlığını təmin edir, həm də ki, cəmiyyətdə idmanın, bədən tərbiyəsinin insan üçün nə qədər lazımlı olduğunu sübut edir.***

***Heydər Əliyev***

Beynəlxalq yarışları keçirmək təcrübəsinə malik olan Azərbaycanda müasir idman qurğularının yaradılmasına da xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakı Atıcılıq Mərkəzinin yaranmasında böyük işlər görüblər. Mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün nəzərdə tutulub. Bakı Atıcılıq Mərkəzinin istifadəyə verilməsi də görülən tədbirlərin mühüm tərkib hissəsidir. Onu da deyək ki, bu mərkəz Avropada ən böyük atıcılıq komplekslərindən biridir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda başlanılan bütün layihələr uğurla, həm də vaxtında icra olunur. Müasir idman qurğularının yalnız Bakıda deyil, eləcə də regionlarda inşası isə ölkəmizdə gənclərin idmana marağının artırılması və idmanın kütləviliyinin təmin edilməsi istiqamətində atılan addımların ardıcıl xarakter aldığını nümayiş etdirir. Bu cür layihələrin reallaşdırılması, eyni zamanda, gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində də mühüm rol oynayır.

Olimpiya Oyunlarına atıcılığın iki növü, güllə atıcılığı və oxatma daxildir. Birinci növə pnevmatik, kiçik çaplı tapançadan və stenddən atıcılıq daxildir. Bu idman növü güllə və stend atıcılığında dəqiq nişan almaq yarışlarıdır.

Orta əsrlərdən ov tüfəngindən atəş açma yarışlarının keçirildiyi barədə məlumatlar mövcuddur. İlk odlu silah Çində 1132-ci ildə meydana gəlmişdir. Rəsmi olaraq, Avropada odlu silahların XIV əsrdə, texnologiyanın inkişafı barıt enerjisindən istifadə etməyə imkan verdiyi zaman meydana gəldiyinə inanılır. O vaxtlar ovçular uçan quşlara, ov heyvanlarına atəş açmaqla əylənər, eyni zamanda ovçuluq sənətinin sirlərini mənimsəyərdilər. Ətraf mühitə, canlı aləmə bağlı insanların etirazlarına baxmayaraq, "Göyərçin ovu" adı ilə bir çox ölkələrdə populyarlaşan bir idman növü meydana gəldi. İngiltərə, Fransa, Almaniya, İtaliya kimi bir çox Avropa ölkələrində artıq XVIII əsrin ortalarından ovçuluq idmanı üzrə ixtisaslaşmış klublar yaradıldı və onlar öz aralarında yarışlar keçirməyə başladılar. Beləliklə də atıcılıq idman növünün təməli qoyuldu. Barıtın ixtirasından sonra odlu silahlardan istifadə bu idman növünün bünövrəsini qoydu. Xeyli xərc tələb edə bu idman növü XIX əsrdə Şimali Avropada və İngiltərədə oynanmağa başladı. Atıcılıq üzrə ilk dünya çempionatı 1890-cı ildə keçirilirdi. 1896-cı ildə isə Olimpiya Oyunlarına daxil edildi. Azərbaycanda stend atıcılığı ilə 1920-ci ildən məşğul olmağa başlayıblar.

Güllə atıcılığı kiçik kalibrli və Amerika tüfəngləri ilə, tapançalarla və revolverlərlə keçirilir. Tüfənglərdən uzanaraq, dizi üstə və ayaq üstə 25 m-dən 300 m məsafəyə qədər atəş açırlar. Hər atəş üçün 3 dəqiqəyə qədər vaxt ayrılır. Bu "yavaş" atıcılıq adlanır. Lakin "sürətli" atıcılıq da var: məsələn, Amerika tüfəngindən 300 m məsafəyə 30 saniyə ərzində 5 dəfə atəş açmaq.



Çox zaman atəş hərəkətsiz hədəflərə açılır. Kağız və karton hədəf üzərində qara dairə və onun ətrafında zonalar cızan konsentrik çevrələr çəkilir. Mərkəzə vurmaq 10 xal, sonrakı zonaya 9 xal, axrıncı zonaya vurmaq 1 xal sayılır. Hərəkət edən hədəflərə atıcılıq müxtəlif cür olur: "qaçan maral"a 100 m məsafədən, "qaçan cüyür"ə 50m məsafədən atəş. Heyvanın natural böyüklükdə çəkilmiş profilində 5, 4, 3, 2 və 1 xalı göstərən dairələr çəkilir. Xüsusi qurğunun köməyi ilə "maral" 5,4 m/san., "cüyür" isə 4m/san. sürətlə hərəkət edir. Hədəfi ayaq üstə bir və ya iki güllə ilə vurmaq lazımdır.

Tapançalardan və revolverlərdən ayaq üstə 25 m və 50 m məsafədəki hərəkət və ya peyda olan hədəflərə atəş açırlar.

Güllə atıcılığının çoxlu müxtəlif terminləri var. Stend atıcılığı - ov tüfəngindən qırma ilə uçan hədəfləri (kiçik boşqabları) vurmaqdır. Bu boşqablar xüsusi maşınla 20 m/san. sürət ilə tullanılır. Stend atıcılığı üzrə dünya və Olimpiya birincilikləri keçirilir.

1896-cı ildə Afinada keçirilən ilk müasir Olimpiya Oyunlarında 9 idman növü arasında stend atıcılığı da yer alırdı. 1900-cü ildə Parisdə keçirilən Olimpiya oyunlarında hədəf olaraq canlı göyərçinlərdən istifadə olunurdu. Yarış qaydalarına əsasən göyərçinləri şlyapa altına və ya qutunun içinə otuzdurub sonra isə ipi dartaraq göyərçini buraxırdılar və onu uçan zaman göydə vurmalı idilər. Sonrakı yarışlarda canlı göyərçinlər hədəf olmaqdan çıxarıldı. Atıcılıq idman növündə hədəflərin nədən və necə hazırlanması atıcıları və idmançıları hələ XIX əsrin əvvəllərindən düşündürürdü. Həmin əsrin 30-cu illərinin axırlarında bostonlu atıcı Portlok tərəfindən şar formasında ölçüsü 6.5 sm olan süni hədəf və onu atmaq üçün aparat icad edilmişdi. Bir neçə zaman sonra onun həmyerlisi A.Boqardus hədəfləri 35 metr atan aparat icad edir. Yarışlarda hədəflərin vurulmasının daha effektli alınması üçün şarların içini rəngli tük və ya toz ilə doldururdular. Boşqab formasında hədəflər və onları atmaq üçün xüsusi aparatlar 1880-ci ildə Sinsinatili Liqovski tərəfindən icad olundu. Lakin yuxarıda qeyd olunduğu kimi, ilk iki müasir Olimpiya Oyunlarının proqramında yer alan atıcılıq idman növü üzrə yarışlarda hədəf olaraq canlı göyərçinlərdən istifadə olunmuşdu.XX əsrin əvvəllərində stend atıcılığında yeni növlər yaranmağa başlayır. Bu günə qədər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında stend atıcılığında üç növ "Səngər stendi" (Trap), "Dairəvi stend" (Skeet), "Qoşa səngər stend" (Double trap) mövcuddur. Azərbaycanda stend atıcılığı ilə 1920-ci ildən məşğul olmağa başlayıblar. Ölkənin stend atıcılarının Olimpiya Oyunlarında iştirakı 1988-ci ildə Seul olimpiadasından başlandı. Bu idman növündə ölkəni təmsil edən Valeri Timoxin Seul və Atlanta olimpiadalarının iştirakçısı olmuşdur. 2000-ci ildə Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında isə Zemfira Meftaxetdinova dünyanın ən sərrast stend atıcısı kimi tarixə düşdü.(Zemfira Meftaxetdinova - 28 may 1963, Bakı şəhərində anadan olmuşdur, Azərbaycanın atıcı idmançısıdır (stend atıcılığı).

O, ADİA-nı (Azərbaycan Dövlət İdman Akademiyasını) məzunudur. Z. Meftaxetdinova 2000-ci ilin Olimpiya çempionu, 2004-cü il Olimpiya Oyunlarının bürünc mükafatçısı, 2008-ci il Olimpiya Oyunlarının iştirakçısı (15-ci yeri tutub), 1986, 1987 və 1988-ci illərin çempionu, 1986 və 1988-ci illərin gümüş mükafaçısı, 1987 və 1990-cı illərin bürünc mükafatçısı, 1986-cı ilin komanda şəklində dünya çempionatının gümüş mükafatçısıdır. 1986 cı il SSRİ çempionatının bürünc mükafatçısıdır. Sidneydə keçirilən 2000-ci il Olimpiya Oyunlarında, 73-25 nəticəsi ilə Azərbaycanın atıcılıq üzrə yığma komandasına birinci qızıl medalı qazandırdı. Afinada keçirilən 2004-cü il Olimpiya Oyunlarında 71-22 nəticəsi ilə atıcılıq üzrə üçüncü yerə layiq görülmüşdür. Zemfira həmçinin Pekində keçirilmiş 2008-ci il Olimpiya Oyunlarında da iştirak etmişdir, 63 hədəfi vuraraq 15-ci yeri tutmuşdur. O, 100 mümkün xaldan 98-ni toplayaraq, həm də dairəvi stend növündə Olimpiya rekordunu təzələdi.

İradə Süleyman qızı Aşumova (25 fevral 1958-ci ildə Azərbaycanda anadan olmuşdur) Azəbaycanın atıcı idmançısıdır. Azərbaycan yığma komandasının məşqçisi (güllə atıcılığı üzrə) İradə Aşumova 2004-cü il Olimpiya Oyunlarının bürünc mükafatçısı, 1996 və 2000-ci illərdə keçirilən Olimpiya Oyunlarının iştrakçısıdır.

1985, 1998 və 2002-ci illərdə keçirilən dünya çempionatının gümüş mükafatçısıdır, 1986-cı il Dünya Kubokunun sahibidir. Bakıda, Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasında dərs deyir.

Qeyd edək ki, atıcılıqla məşğul olan qadın idmançılar ilk dəfə olaraq 1984 - cü ildə Los Ancelesdə keçirilən Olimpiya Oyunlarında yarışmışlar. "Dairəvi stend" (Skeet): Bu növdə idmançılar 10 metr uzaqlıqdan hədəfə atəş açırlar. Hədəflər sürətli və yavaş olmaqla ikiyə ayrılır. Hərəkətli hədəflərin hər birinə 30 atəş açılır. "Səngər stend" (Trap): Bu növdə hədəflər beş ayrı nöqtədən havaya fırladılır. İdmançılar hədəflərin olduğu yerdən 15 metr uzaqlıqda dayanırlar. Kişilər tərəfindən 125, qadınlar tərəfindən 75 hədəfə atəş açılır. İdmançı hədəfin hansı məntəqədən atılacağını əvvəlcədən bilmir. Hədəfi vurmaq üçün iki atəş imkanı verilir. Əksərən ikilüləli 12 kalibirli ov tüfəngindən istifadə olunur. "Qoşa səngər stend" (Double trap): Eyni anda havaya iki hədəf atılır. 8 hədəfatma nöqtəsi olur. Hər hədəfə yalnız bir dəfə atəş açıla bilər. İdmançı hədəf atılana qədər silahı çanaq səviyyəsində tutmalıdır. Hədəf havaya atılanda silah çiyin səviyyəsinə qaldırılır və atəş açılır. Stend atıcılığı sahəsində 5 atış meydançası inşa edilib. Bu meydançalarda səngər atış hərəkətləri üçün 75 hədəftullayıcı avadanlıq quraşdırılıb. Dairəvi atış hərəkətləri üçün inşa edilmiş 5 qüllədə isə 10 hədəftullayıcı avadanlıq var.

Respublikamızın qocaman ali təhsil ocaqlarından olan N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti 1921-ci ildə yaradılmışdır. Onun ilk buraxılışı 1923-1924-cü tədris ilində olmuşdur. ADPU indiyədək 100 mindən artıq ali təhsilli müəllim kadrları hazırlamışdır.



Fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi texnologiyası kafedrası 1981-ci ildə yaradılmışdır. Fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi texnologiyası kafedrasının inkişafında universitet rəhbərliyinin, fakültə dekanının və kafedra müdirinin səmərəli xidmətləri olmuşdur. Fiziki tərbiyə və gənclərin çağırışaqədər hazırlığı müəllimlərinin peşə hazırlığının təkmilləşdirilməsi məqsədi ilə 2018 - 2019-cu tədris ilindən etibarən kafedrada tir atıcılıq mərkəzi yaradılmışdır. Kafedrada tir atıcılıq mərkəzinin yaradılmasında məqsəd gənclərin fiziki tərbiyə və ibtidai hərbi hazırıq Əsasnaməsinə uyğun normativ hüquqi aktlara uyğun həyata keçirilməsidir. Vətənimizin suverenliyini, ərazi bütövlüyünün, toxunulmazlığının silahlı müdafiəsi, dövlətə silahlı hücumun qarşısının alınması, təcavüz olunarsa, onun dəf edilməsi sadiq hərbiçilərmizin Vətənimiz və dövlətçiliyimiz qarşısında borc olduğu "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilib. Dövlətmizin apardığı uğurlu iqtisadi siyasət nəticəsində ordumuz gündən - günə daha müasir silah və texnika ilə təhciz olunur və hərbi qulluqçuların rifahı daha da yüksəlir. Ona görə də hər bir gənc əvvəlcədən özünü hərbi xidmətə hazırlamalıdır.

Fiziki tərbiyə və çağrışaqədər hazırlığın tədrisi texnologiyası kafedrasında tir atıcılıq mərkəzi atıcılıq üzrə ümumi kurs fənninin tədrisi üçün nəzərdə tutulub. Kafedranın tir atıcılıq mərkəzində hər il Azərbaycan Respublikasının "Xocalı faciəsi xalqımızın qan yaddaşıdır", "Bədən tərbiyəsi və idman" gününə həsr olunmuş atıcılıq üzrə yarışlar keçirilir. Tir-atıcılığı üzrə yarışının keçirilməsinin əsas məqsədi Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələriarasında hərbi-vətənpərvərlik ruhunun aşılanmasının təbliği və Vətənə, bayrağa olan sevgi ruhunu yüksəltməkdir.

Bu gün Azərbaycan Dövlət Pedaqoji Universitetinin "fiziki tərbiyə və çağrışaqədər hazırlığın tədrisi texnologiyası kafedrasında" təhsili sahəsində yüksək ixtisaslı mütəxəssisləri hazırlamaq üçün bütün imkanları yaradan müasir ali təhsil məktəbidir. ADPU-nun fiziki tərbiyə, idman və çağrışaqədər hazırlığın tədrisi təhsilini dünya standartlarına uyğunlaşdırmaq, təhsilin keyfiyyətini artırmaq və beynəlxalq əmək bazarında rəqabət qabiliyyətinə malik mütəxəssislər hazırlamaq kimi hədəfləri qarşısına qoymuşdur. Bu məqsədlərə nail olmaq üçün ADPU-da ardıcıl islahatlar aparılır, tam yeni infrastruktur yaradılır (elektron kitabxana, tədris laboratoriyaları, sürətli internet və s.), təhsil imkanları genişləndirilir (distant və onlayn təhsil imkanları, İKT-nin tətbiqi, tələbə və professor-müəllim heyətinin mübadiləsi, elmi-tədqiqat işlərinin aparılması və s.), beynəlxalq təcrübə öyrənilir və beynəlxalq əməkdaşlıqlar qurulur.

**E.Ə.Abdullayev**
*ADPU-nun Fiziki tərbiyə və ÇH tədrisi texnologiyası kafedrasının müdiri*

**E.A.Muxtarlı**
*ADPU-nun Fiziki tərbiyə və ÇH tədrisi texnologiyası kafedrasının müəllimi*

# WAKO Azərbaycan Gəncə və ətraf rayonlarda



Göygöl şəhərinin Gənclər Mərkəzində, Gəncə şəhər zonası və ətraf rayonlarının kikboksinq idman klublarının rəhbərləri və məşqçiləri ilə görüş keçirilib.

İclasın iştirakçıları ənənəvi olaraq görüşdən əvvəl COVİD-19 testlərin neqativ cavablarını alıb, inzibati binaya daxil olarkən hərarətin yoxlama və digər təhlükəsizlik prosedurlarından keçiblər.

Görüşdə Azərbaycan Kikboksinq Federasiyasının 1-ci vitse-prezidenti Ehram Məcidov, federasiyanın baş katibi və milli komandanın rəisi Sadıx Bağırov, Gəncə zonasından WAKO Beynəlxalq dərəcəli hakim Anar Məmmədov, gənclərin Lowkick üzrə milli komandanın böyük məşqçisi Albert Qəribov və "Gəncə" kikboksinq idman klubunun rəhbəri İlqar Alıyev iştirak ediblər.

İclasın açılışında 1-ci vitse-prezident Ehram Məcidov federasiyanın fəxri prezidenti, Milli Məclisin sədr müavini Adil Əliyev və federasiyanın prezidenti Orxan Əliyevin salamlarını görüş iştirakçılarına çatdırıb.

Gənclər və İdman naziri Azad Rəhimovun vaxtsız vəfatından söhbət açan E.Məcidov, onun hər zaman gənclər və idmançılara dəstək olduğunu vurğulayıb.

Görüşdə federasiyanın pandemiya dövründə olan fəaliyyəti barəsində, həmçinin gələcək planları barədə ətraflı məlumat verən Ehram Məcidov bu ilin iyun ayında planlaşdırılan Caspian Open 2021 WAKO Beynəlxalq turnirinin keçirilməsi barəsində xəbəri elan edib. O, qeyd olunan turnirin WAKO tərəfindən rəsmiləşdirilməsi, həmçinin respublika çempionatı və respublika birinciliyi statusu alması ilə yanaşı, beynəlxalq turnirin nəticəsi əsasında milli komandanın formalaşması barəsində ətraflı izah verib. Ehram Məcidov, həmçinin yarışın gələn ildən rəsmi Caspian Open WAKO European Cup, yəni rəsmi WAKO-nun Avropa Kuboku statusu alacağını bildirib.

Planlaşdırılan beynəlxalq turnirin bütün pandemiya qaydalarına uyğun olaraq, WAKO tərəfindən rəsmi beynəlxalq yarışlarının keçirilməsi üçün nəzərdə tutulmuş COVID-19-a qarşı WAKO Safety Protocol təhlükəsizlik qaydalarına əsasən, keçirilməsini vurğulayan Ehram Məcidov həmçinin iclas iştirakçılarını maraqlandıran digər müxtəlif suallara da cavab verib.

Federasiyanın baş katibi və milli komandanın rəisi Sadıx Bağırov son vaxtlar WAKO ilə federasiyanın əlaqələrinin daha da gücləndirilməsi barədə məlumatları tədbir iştirakçıları ilə bölüşüb.

O, bu ilin WAKO-nun böyüklər arası dünya çempionatı, həmçinin gənclər və yeniyetmələr arasında Avropa çempionatına ev sahibliyini əldə etmək üçün namizədliyimizin verilməsi, həmçinin 10-dan artıq digər namizədləri geridə qoyarkən hazırda yalnız iki real namizədin, Monteneqro və Azərbaycan mübarizəsinin davam etdiyini, yekun qərarın isə yaxın günlərdə WAKO Europe İdarə heyətinin növbədənkənar iclasında açıqlamasını vurğulayıb.

Bundan əlavə Sadıx Bağırov, may ayının 20-dən 24-dək AKF prezidenti Orxan Əliyevin dəvətilə WAKO prezidenti cənab Roy Beykerin Bakıya səfər edəcəyini açıqlayıb. Səfər zamanı Milli Məclisin Gənclər və İdman komitəsində, Gənclər və İdman Nazirliyində, eləcə də Milli Olimpiya Komitəsində görüşlər keçirilməsi barədə məlumat verib.

İclasda həmçinin Gəncə zonasından WAKO Beynəlxalq dərəcəli hakim Anar Məmmədov, gənclərin Lowkick üzrə milli komandanın böyük məşqçisi Albert Qəribov və Gəncə kikboksinq idman klubunun rəhbəri İlqar Alıyev çıxış edib.

Sonra Azərbaycan Kikboksinq Federasiyası tərəfindən rəsmi qeydiyyatdan keçən klubların əsasnamə və müqavilələri klubların rəsmilərinə təqdim olunub.

# Sergey Kramarenko - "Neftçi"nin 75 yaşlı əfsanəsi

SSRİ idman ustası Sergey Kramarenko 1946-cı il mayın 27-də Gəncə şəhərində anadan olub. Futbola anadan olduğu Gəncə şəhərində başlayan S.Kramarenko qapıçı mövqeyində çıxış edib. Karyerasının əsas hissəsini Bakının "Neftçi" klubunda keçirib. O, fasilələrlə 20 ilə yaxın "Neftçi" komandasının heyətində forma geyinib. 1966-cı ildə "Neftçi" klubu ilə SSRİ çempionatının bürünc mükafatını qazanıb. Sergey Kramarenko 1971-ci ildə hakimi vurduğu üçün 3 il futboldan diskvalifikasiya edilib. Lakin 1973-cü ildə yenidən birinci liqada, doğma klubunun heyətində çıxış etməyə başlayıb.



S.Kramarenko SSRİ çempionatının yüksək liqasında oyun sayı baxımından Azərbaycan futbolunda rekorda sahibdir - 313 qarşılaşma (ləğv edilmiş bir matç da daxil olmaqla).

Futbolçu karyerasını bitirdikdən sonra məşqçilik etməyə başlayan Kramarenko "Göyəzən", "Xəzər Lənkəran", "Neftçi"klublarında məşqçi kimi çalışıb.

Sergey Kramarenko 2008-ci il martın 25-də Moskvada vəfat edib.

Həmin ilin iyun ayında "Neftçi" klubu Sergey Kramarenko adına mükafat təsis edib. Qeyd edək ki, həmin mükafat Azərbaycan çempionatının ən yaxşı qapıçısına verilir (qapıçı mütəxəssislər və jurnalistlər arasında keçirilmiş sorğu əsasında müəyyənləşir).

Sergey Kramarenkonun oğlu Dimitri Kramarenko da vaxtilə qapıçı mövqeyində çıxış edib.

# Banişevski Avropa çempionatlarının rekordçuları sırasında

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) Avropa çempinatları tarixində ən çox oyuna çıxmaqla rekorda imza atan futbolçuların adlarını açıqlayıb.

Siyahıda Azərbaycanın əfsanəvi futbolçusu, SSRİ yığmasının və "Neftçi"nin keçmiş hücumçusu Anatoli Banişevskinin adı da yer alıb.

SSRİ komandasının 3 üzvü - Valentin İvanov, Lev Yaşin və Viktor Ponedelnik AVRO-1964-ün sonuna qədər 4 oyun keçiriblər. Bu, həmin vaxt çempionatın rekordu hesab edilib.

1972-ci ildəki yarışın sonunda isə Anatoli Banişevski və daha bir neçə futbolçu bu uğuru təkrarlayıb.

Daha sonra 8 oyunçunun rekordunu 1976-cı ildə Yuqoslaviyanın heyətində Draqan Caiç qırıb. Keçmiş forvard həmin vaxt Avropa çempinatlarında 5-ci oyununa çıxıb.



Hazırda oyunların sayına görə rekord Portuqaliya millisinin ulduz futbolçusu Kriştianu Ronalduya məxsusdur. O, bu vaxta qədər 21 dəfə Avropa çempionatları matçında meydanda olub. Təcrübəli oyunçu AVRO-2020-də öz rekordunu daha da təkmilləşdirə bilər.

AVRO-2020 bu il iyunun 11-dən iyulun 11-dək keçiriləcəkdir.

Qeyd edək ki, Anatoli Banişevski 1968 və 1972-ci ildə SSRİ yığmasının heyətində Avropa çempionatında oynayıb. O, 1972-ci ildə komanda ilə birlikdə gümüş medal qazanıb.



## Avro-2020-nin oyunlarının biletləri satışa çıxarılıb

Futbol üzrə Avropa çempionatının Bakı Olimpiya Stadionunda keçiriləcək oyunlarının biletləri mayın 15-dən satışa çıxarılıb. Azarkeşlər biletləri 6 müxtəlif satış məntəqəsində əldə edə bilərlər. Biletləri M.Rəsulzadə 3, Bülbül prospekti, Nizami küçəsi və Üzeyir Hacıbəyli küçəsi 69 x ünvanlarındakı köşklərdən, 1, 2 və 3 saylı "ASAN xidmət" mərkəzlərindən almaq mümkündür.

Biletlərin qiyməti birinci kateqoriya üzrə 250, ikinci kateqoriya üzrə 150, üçüncü kateqoriya üzrə isə 60 manat təşkil edir.

Bakı Olimpiya Stadionunda Avro-2020-nin "A" qrupunun Uels-İsveçrə (12 iyun), Türkiyə-Uels (16 iyun) və Türkiyə-İsveçrə (20 iyun) oyunları, həmçinin dörddəbir final mərhələsinin bir matçı (3 iyul) təşkil olunacaq.

## Avropa çempionatının rəsmi mahnısı müəyyənləşdi

Bu il keçiriləcək futbol üzrə Avropa çempionatının rəsmi mahnısı müəyyənləşib. Mahnını niderlandlı Martin Qarriks və İrlandiyanın "U2 Bono and The Edge" rok qrupunun üzvləri ifa edirlər. Mahnı "We are the people" adlanır.

Qeyd edək ki, Avropa çempionatı iyunun 11-dən iyulun 11-dək Bakı ilə yanaşı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Kopenhagen, Amsterdam, Sevilya, Qlazqo və Budapeştdə keçirilməsi planlaşdırılır.

## Avro-2020-nin ilk könüllü komandası fəaliyyətə başlayıb

Avro-2020-nin 48 nəfərlik ilk könüllü komandası rəsmi olaraq fəaliyyətə başlayıb. İlk qrup iyulun 5-dək Avro-2020-nin akkreditasiya mərkəzində vətəndaşlara xidmət göstərəcək.

Digər könüllülər üçün təlimlər davam edir. Könüllülərin mayın 19-dan etibarən təlimlərlə paralel olaraq, şöbələrin iş fəaliyyətinin start tarixlərinə əsasən işə başlayacaqlar.

## Çempionlar Liqasının final oyunu ilə bağlı yekun qərar verildi

Futbol üzrə UEFA Çempionlar Liqasının final oyunu ilə bağlı yekun qərarı açıqlanıb. Həlledici matç koronavirus pandemiyası səbəbindən Türkiyənin İstanbul şəhərindən alınaraq Portuqaliyaya verilib.

Final qarşılaşması mayın 29-da Portu şəhərindəki "Draqau" stadionunda olacaq. Hər klubun 6 min azarkeşi oyunu tribunadan izləyə biləcək. UEFA-nın azarkeş sayı ilə bağlı yekun qərarı daha sonra bəlli olacaq.

Görüş Bakı vaxtı ilə saat 23:00-da başlanacaq. Finalda İngiltərənin "Mançester Siti" və "Çelsi" komandaları üz-üzə gələcək.

Matçın daha əvvəl Atatürk Olimpiya Stadionunda keçirilməsi planlaşdırılıb. UEFA görüşün İngiltərədə təşkilinin də nəzərdə tutulduğunu, lakin karantin tədbirləri üzündən danışıqların nəticəsiz qaldığını bildirib.

Avropa futbol qurumu anlayışa görə Türkiyə tərəfinə təşəkkür edib və İstanbul şəhəri üçün gələcək imkanların nəzərdən keçiriləcəyini vurğulayıb.

# Kata üzrə açıq Bakı birinciliyi keçirilib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və Bakı Karate-do Akademiyasının birgə təşkilatçılığı ilə kata üzrə onlayn açıq Bakı birinciliyi keçirilib. Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş turnirdə respublikamızın müxtəlif bölgələrindən 200-ə yaxın idmançı iştirak edib.

Çempionatın keçirilməsində məqsəd ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərini, gənclərə və idmançılara diqqət və qayğısını təbliğ etməkdir.

Turnirin açılışında Bakı Karate-do Akademiyasının prezidenti Vüsal Abdullazadə ulu öndər Heydər Əliyevin daim gənclərin fiziki və mənəvi baxımdan sağlam böyüməsinə xüsusi diqqət göstərdiyini vurğulayıb. Akademiyanın fəaliyyətində ümummilli liderin ideyalarını rəhbər tutduğunu vurğulayan V.Abdullazadə bildirib ki, belə yarışlar gənclərin daha sağlam, güclü yetişməsi, istedadlı gənclərin üzə çıxarılması, ən əsası Azərbaycanın bütün dünyada təbliği üçün yaxşı zəmin yaradır. O, turnirin təşkilinə fəal dəstəyə görə



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinə minnətdarlığını bildirib.

Maraqlı idman mübarizəsi şəraitində keçən turnirin qalibləri mükafatlandırılıb.

# Dünya idmanı



## Kobi Brayantın adı şöhrət zalına daxil edildi



"Lakers" basketbol klubunun keçmiş oyunçusu Kobi Brayantın adı ölümündən sonra Ceyms Neysmit adına basketbol şöhrət zalına daxil edilib. NBA-nın məlumatına görə, mərasim ABŞ-da təşkil olunub. Şöhrət zalına həmçinin NBA-nın çempionları Tim Dankan və Kevin Qarnet, NBA qadın çempionu, Olimpiya çempionu Tamika Ketçinqs, məşqçilər Rudi Tomyanoviç, kim Malki, Barbara Stevens, Eddi Satton, menecer Patrik Bauman da daxil edilib.

Şöhrət zalına daxil olan şəxslərin adları 2020-ci ilin aprel ayında elan olunub. Mərasimin avqust ayında keçirilməsi planlaşdırılsa da, pandemiya səbəbindən təxirə salınmışdı.

Xatırladaq ki, 41 yaşlı Kobi Brayant 2020-ci il yanvar 26-da Los-Anceles yaxınlığında şəxsi helikopterdə səyahət edərkən qəzaya düşüb. Nəticədə helikopterdə olan basketbolçunun 13 yaşlı qızı Cianna, pilot və daha səkkiz sərnişin həlak olub.

## İlin ən çox gəlir əldə edən idmançısı



Son bir ilin ən yüksək ödənişli idmançılarının siyahısı açıqlanıb. "Forbes" nəşrinin cədvəlində ən çox qazanc əldə edən 10 nəfər yer alıb.

İl ərzində ən çox gəlir əldə edən idmançı məşhur MMA döyüşçüsü Konor Makqreqordur. İlk "üçlüy"ün digər sahibləri futbolçulardır. Uzun illərdir rekordları alt-üst edən Lionel Messi ilə Kriştianu Ronaldo müvafiq olaraq, 2-3-cü pillələrdə qərarlaşıblar.

İlk "10-luq"da yer alan digər futbolçu Neymar isə 6-cı sırada yer alıb.

1. Konor Makqreqor (MMA döyüşçüsü) - 180 milyon dollar
2. Lionel Messi (futbolçu) - 130 milyon
3. Kriştianu Ronaldo (futbolçu) - 120 milyon
4. Dak Preskott (Amerika futbolçusu) - 107,5 milyon
5. Lebron Ceyms (basketbolçu) - 96,5 milyon
6. Neymar (futbolçu) - 95 milyon
7. Roje Federer (tennisçi) - 90 milyon
8. Lyüs Hemilton (Formula 1 pilotu) - 82 milyon
9. Tom Bredi (Amerika futbolçusu) - 76 milyon
10. Kevin Dyürant (basketbolçu) - 75 milyon

## Bekhem "Dostlar" serialının xüsusi buraxılışında iştirak edəcək

"Mançester Yunayted" və "Real Madrid" kimi klubların heyətində çıxış edən keçmiş futbolçu Devid Bekhem əfsanəvi "Dostlar" serialının xüsusi buraxılışında iştirak edəcək.

İngiltərəli oyunçu layihədə qonaq ulduz qismində yer alacaq.

Bekhemlə yanaşı, serialın xüsusi buraxılışının qonaqları arasında aktrisalar Riz Uizerspunla Kara Delevin, müğənnilər Ledi Qaqa və Castin Timberleyk kimi bir sıra digər məşhurlar da olacaq.

Qeyd edək ki, "Dostlar" serialı 1994-2004-cü illərdə efirə çıxıb və televiziya tarixində ən populyar seriallardan biri olub.



## Türkiyə Qran-Prisi ləğv edildi



Formula 1 üzrə Türkiyə Qran-prisi ləğv olunub. Bu barədə yarışın rəsmi saytı məlumat yayıb. Bildirilib ki, Qran-pri koronavirusa görə səyahət məhdudiyyətləri səbəbindən təşkil olunmayacaq.

Əvəzində 18-20 iyunda Fransada, 25-27 iyun və 2-4 iyulda Avstriyada yarışların keçirilməsi qərara alınıb.

Qeyd edək ki, Türkiyədəki turnirin iyunun 11-13-də keçirilməsi planlaşdırılırdı.

olimpnews.az - sizin saytınız



## Qadınlara kişilərlə eyni komandada futbol oynamaq icazəsi verildi

Niderland Kral Futbol İttifaqı qadınlar və kişilərin eyni futbol klubunda çıxış etməsinə icazə verib. Qərar ölkənin 9-cu divizionunda keçirilən sınaqlardan sonra qəbul olunub. İcazə növbəti mövsümdən qüvvəyə minəcək və hələ ki, yalnız həvəskar komandalara şamil olunacaq.



Qeyd edək ki, bunadək Niderlandda yalnız 18 yaşadək olan komandalar səviyyəsində qızlarla oğlanların birgə çıxışı mümkün idi.

## UFC döyüşçüsü həbs edildi

Keçmiş UFC döyüşçüsü Dmitri Sosnovski 8,5 il müddətinə azadlıqdan məhrum edilib. Nikulin rayon məhkəməsi idmançı ilə əlbir olan Ruslan Mamatkulov, Andrey Kozlov, Aleksandr Qladkov və İldar Salaxotdinova 4-9,5 il həbs cəzası verib.

Xatırladaq ki, idmançı 2019-cu ildə Moskvada yaxın tanışının 400 min rubl məbləğində borcu olan şəxsi dostları ilə birlikdə qaçırıb və hədələyərək sözügedən borcun silinməsini tələb edib.

## Avroliqa qapalı turnirə çevrilə bilər



Basketbol üzrə Avroliqa 2023/2024 mövsümündən etibarən qapalı turnirə çevrilə bilər. Yarış rəhbərliyi artıq bu layihənin icrası ilə bağlı işlərə başlayıb.

İddiaya görə, bütün turnir iştirakçılarının yarışda iştirak etmək üçün uzunmüddətli lisenziyaları olacaq. Avrokuboklar artıq Avroliqaya keçmək imkanı verməyəcək.

Avroliqadakı 11 səhmdar klubun hamısı bu ideyanı həyata keçirməkdə maraqlıdır.

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19